# Tovuzda Azərbaycanlıların Soyqırımı Günü yad olunub

**Tovuzdakı Heydər Əliyev Mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar "Mart soyqırımı insanlığa sığmayan cinayətdir" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.**






Konfransda çıxış edən rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov soyqırımının ağır nəticələrindən danışmış və bildirmişdir ki, son 200 ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılmışdır: "Bu dəhşətli hadisələrdən biri də 1918-ci ilin mart-aprel aylarında yaşanmışdır. Sovet hakimiyyəti dövründə 70 il xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır. Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi".

Çıxışlardan sonra azərbaycanlıların soyqırımından bəhs edən videoçarx nümayiş olundu.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 31 mart, № 66.- S.11.